# Azərbaycan Respublikası Prezidentinin Sərəncamları

2004-cü il

- "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(11 may 2004-cü il)*

- "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(11 iyun 2004-cü il)*

- Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (*23 oktyabr 2004-cü il*)

- "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(23 oktyabr 2004-cü il)*

- "Sumqayıt şəhərinin inkişafında xüsusi xidmətləri olan şəxslərin təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(23 dekabr 2004-cü il)*

# "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 may 2004-cü il
№ 220

# "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"nin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2004-cü il mayın 15-də Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində imzalanmış "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İslam İnkişaf Bankını xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyun 2004-cü il
№254

## Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında son illər aparılan islahatlar nəticəsində aqrar bölmədə yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, bu sahənin inkişafını tənzimləyən normativ hüquqi baza təkmilləşdirilmiş, kənd təsərrüfatı məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmış və regionlarda sahibkarlığın inkişafı üçün əlverişli şərait yaranmışdır. Qazanılmış uğurlar və mövcud potensial dövlətin aqrar siyasətinin həyata keçirilməsini sürətləndirməklə kənd yerlərini inkişaf etdirmək və kənd əhalisinin rifah halını daha da yaxşılaşdırmaqla yanaşı, bu mühüm bölmənin idarə edilməsinin müasir tələblərə uyğun yenidən qurulmasını tələb edir.

Aqrar bölmənin idarə edilməsində mövcud pərakəndəliyi aradan qaldırmaq, bu sahənin davamlı inkişafını təmin edən idarəetmə sistemini yaratmaq məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkil edilsin və müəyyən edilsin ki, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, meliorasiya və su təsərrüfatı, baytarlıq, bitki karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla, aqrar bölmədə dövlət siyasətini və iqtisadi münasibətlərin tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında aşağıdakı qurumlar yaradılsın:

2.1. Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi;

2.2. Dövlət Baytarlıq Xidməti;

2.3. Dövlət Fitosanitar Nəzarəti Xidməti;

2.4. Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi ləğv edilsin və onun balansında olan əmlak Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında yaradılan Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinə verilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

4.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında və onun yanında yaradılan xidmətlərin və agentliklərin Əsasnamələrinin layihələrini və nazirlik sisteminin strukturu barədə təkliflərini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. qüvvədə olan qanunvericilik aktlarının bu Sərəncama uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 oktyabr 2004-cü il.
№ 467

# Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Aqrar bölmədə islahatların, o cümlədən torpaq islahatının həyata keçirilməsi, kolxoz və sovxozların ləğvi və onlara məxsus bütün əmlakın kənd əhalisinə pulsuz paylanması, məhsulun qiymətlərinin sərbəstləşdirilməsi, kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin özəlləşdirilməsi və digər tədbirlər bu bölmənin dinamik inkişafına ciddi təkan vermişdir. Keçən illər ərzində pulsuz torpaq payı almaq hüququ olan 3 milyon 500 min vətəndaş torpaq mülkiyyətçisi hüququ verən dövlət aktı almışdır. Ləğv olunmuş kolxoz və sovxozların, özəlləşdirilmiş dövlət müəssisələrinin ümumi məbləği 100 milyard manatdan çox olan borcları silinmişdir. Fermerlərin müxtəlif kənd təsərrüfatı texnikası ilə təchiz olunmasına dair layihələr həyata keçirilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq və bu sahədə sahibkarlığın inkişafını sürətləndirmək məqsədi ilə kənd təsərrüfatı məhsullarının istehsalçıları 2009-cu il yanvarın 1-dək torpaq vergisindən başqa, bütün vergilərdən azad edilmişlər.

Hazırkı mərhələdə aqrar sahədə qarşıda duran başlıca vəzifələrdən biri istehsalçının zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaqdan, keyfiyyətli məhsul yetişdirməkdən və onun itkisiz yığılmasını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər)" bununla bağlı müvafiq tədbirlər nəzərdə tutulmuşdur.

Aqrar bölmənin müasir texnika ilə təchizatı məsələlərinin çevik şəkildə tənzimlənməsini təmin etmək və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasını sürətləndirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, ilkin mərhələdə səhmlərinin nəzarət zərfi 100 faiz dövlətə məxsus olan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaratsın.

2. Müəyyən edilsin ki, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti dövlət büdcəsindən bu məqsəd üçün ayrılan vəsait hesabına alınan kənd təsərrüfatı texnikasının lizinq yolu ilə hüquqi və fiziki şəxslərə icarəyə verilməsini və ya satılmasını həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

3.1. bir ay müddətində "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması qaydalarını təsdiq etsin;

3.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili üçün ən geci 5 ilə qaytarılmaq şərtilə, 2005-ci və 2006-cı illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrində bu məqsədlə müvafiq olaraq 100,0 milyard və 150,0 milyard manat vəsait nəzərdə tutulmasını təmin etsin;

3.3. lizinq müqaviləsinin obyekti olan qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid daşınar əşyaların idxal gömrük rüsumundan və idxal zamanı əlavə dəyər vergisindən azad olunması üçün 10 gün müddətində müvafiq qərar qəbul etsin;

3.4. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə ölkədə beynəlxalq təşkilatlar və xarici ölkələrin maliyyə qurumları tərəfindən həyata keçirilən layihələr çərçivəsində alınan vəsaitin aqrar bölmənin texniki təchizatının yaxşılaşdırılması üçün istifadəsi üzrə ardıcıl tədbirlər görsün;

3.5. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər həyata keçirsin.

4. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

4.1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə bir ay müddətində "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsini hazırlayıb dövlət qeydiyyatına alınmasını təmin etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 oktyabr 2004-cü il.
№ 468

## Sumqayıt şəhərinin inkişafında xüsusi xidmətləri olan şəxslərin təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Sumqayıt şəhərinin 55 illiyi münasibətilə şəhərin inkişafında xüsusi xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Abdullayev Tofiq Mütəllim oğlu
Gülümov Müzəffər Qəzənfər oğlu
Salahov Mustafa Səttar oğlu
Quliyev Cəfər Məşədiəsəd oğlu
Vəliyeva Gülbahar Nemət qızı

**"Tərəqqi" medalı ilə**

Abdullayev Firudin Bayram oğlu
Ağakişiyev Rauf Fikrət oğlu
Ağayeva Svetlana Məmməd qızı
Axundova Rəhimə Hidayət qızı
Babayeva Ofelya Hacıməmməd qızı
Bağırov İzaməddin Zeynal oğlu
Bağırov Vidadi Mirzə oğlu
Cəfərova Nigar Əliosman qızı
Əhmədov Xəndan Mürsəl oğlu
Əhmədov Səməd Məmməd oğlu
Əlinağıyev Cəbrayıl Fərman oğlu
Əsədov Qismətəli Məmməd oğlu
Əsədullayev Seyfulla Səməd oğlu
Əsgərov Baba Niyaz oğlu
Fərəcov Vahid Əvəz oğlu
Hacıyev Kamran Fərəc oğlu
Hacıyev Tariyel Saleh oğlu
Hacızadə Tərlan Əziz oğlu
Həsənov Musa Süleyman oğlu
Həsənova Gülnarə Mamed qızı
İslamova Olya Zəbi qızı
İsmayılov Cəbrayıl Əliş oğlu
Mahmudov İbrahim Məmmədhüseyn oğlu
Mahmudov Mürsəl Tarıverdi oğlu
Məlikov Ramiz Hacıbala oğlu
Məmmədov Ataş Qaraş oğlu
Məmmədov Əhməd İbrahim oğlu
Məmmədov Sabir Həsən oğlu
Məmmədova Elmira Ələmşah qızı
Mustafayev Firudin Bəylər oğlu
Mikayılov Qurban Allahverdi oğlu
Rəhimov Seyfəddin Kərim oğlu
Rzayeva Ətrabə Qulu qızı
Səfərova İlahə Qiyas qızı
Süleymanov Elman Pərgar oğlu
Şahverdiyev Abbas Səttar oğlu

Şəmsivari İndira İslam qızı
Tağıyev Mayıl Bağı oğlu
Tapdıqova Xatirə Qulu qızı
Zəkəriyyəyev Tahir İslam oğlu

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 dekabr 2004-cü il.
№ 560